Bu kitabça 'Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliliyi üçün əməkdaşlığın gücləndirilməsi – VI Faza' layihəsi çərçivəsində çap edilmişdir.

Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)
BMT-nin Miqrasiya Agentliyi

**ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilir**

**Azərbaycan hökuməti tərəfindən dəstəklənir**

**BMqT tərəfindən icra edilir**

# İNSAN ALVERİ

## və

## ONDAN NECƏ MÜDAFİƏ OLUNMALI?



## - Hər kəs insan alverinin qurbanı ola bilər!

- İnsan alverinin qurbanı cinsi xidmət göstərməyə, fiziki iş görməyə məcbur edilən, daxili orqanlarının çıxarılmasına və ya üzərində biotibbi tədqiqatlar aparılmasına məruz qalan şəxsdir.

## -Unutmayın, siz cinayətkar deyilsiniz!

- Əgər siz və ya ətrafınızda kimsə bu hallarla rastlaşarsa, olduğunuz ölkənin hüquq mühafizə orqanlarına və həmçinin Azərbaycan Respublikasının həmin ölkədəki səfirliyi və ya konsulluğuna müraciət edin!



## -Xarici ölkədə hüquqlarınız pozulduğu halda, Azərbaycan Respublikasının bu ölkələrdəki nümayəndəliklərinə müraciət edin:

| | Ölkə | Telefon | Fax |
|---|---|---|---|
| 1 | BƏƏ- nin Abu Dabi Əmirliyi | (+9712) 666 28 48<br>(+9714) 388 37 27 | (+9712) 666 31 50<br>(+9714) 388 37 36 |
| 2 | Türkiyə Respublikası | (+90312) 491 16 81/82/83<br>(+90) 212 325 80 42/43/44/45 | (+90312) 492 04 30<br>(+90) 212 284 95 79 |
| 3 | Pakistan İslam Respublikası | (+9251) 260 07 03/04<br>(+9251) 260 07 07 | (+9251) 260 07 20<br>(+9251) 260 07 07 |
| 4 | İran İslam Respublikası | (+9821) 22 55 82 99<br>(+9821) 22 55 42 55<br>(+98413) 333 48 02/03/04 | (+9821) 22 55 81 83 |
| 5 | Rusiya Federasiyası | (+7) 495 629 43 32<br>(+7) 495 629 16 49 | (+7) 495 695 50 72<br>(+7) 495 629 55 46 |
| 6 | Hindistan Respublikası | (+9111) 26 15 22 28 | (+9111) 26 15 22 27 |
| 7 | Malayziya | (+603) 42 52 68 00<br>(+603) 42 52 48 00<br>(+603) 42 52 42 53 | (+603) 42 57 18 00 |

QR kodu skan edərək Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri barədə məlumat ala bilərsiniz.

## -İnsan alverinə məruz qaldıqda və ya bundan şübhələndikdə nə etməli?

Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin

**152**

Qaynar Xəttinə dərhal məlumat verin.

Əlaqə telefonu: **+994 12 590 20 49**
Faks: **+994 12 590 20 48**

**Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı Nümayəndəliyi**

**Tel: (012) 465 11 95**

**Email: info@iom.az**

## -İnsan alverçiləri öz qurbanlarını necə tora salır?

- Gözəl həyat və yüksək qazanc vədləri verməklə;
- İşədüzəltmə firmaları, nikah, moda və turizm agentlikləri vasitəsilə;
- İş, təhsil, tanışlıq və nikah haqqında internet, qəzet, küçə və televiziya elanları və ya birbaşa tanışlar, qonşular, iş yerindəki həmkarlar vasitəsilə cəlbedici təkliflər etməklə.



## -Sizə təhlükə yaradacaq risklər nələrdir?




Xaricə getmə və orada qalma məqsədinizə uyğun vizanızın olmaması;

Sərhədi saxta sənədlərlə və ya qanunsuz yollarla keçmək;






Pasportunuzu və ya şəxsiyyəti təsdiq edən sənədinizi yaxından tanımadığınız insanlara etibar etmək;

Yaxından tanımadığınız şəxslərin sizin viza və pasport almağınıza köməklik göstərməsinə yol vermək;

## -Bu halların qarşısını almaq üçün ilkin olaraq nələr etməli?

- Azərbaycan Respublikasının həmin ölkədəki səfirliyinə və ya konsulluğuna müraciət edin;
- Xaricə getdikdə, mütləq, yaşadığınız ərazinin polis orqanlarında, Azərbaycanın həmin ölkədəki səfirlik və ya konsulluğunda qeydiyyatdan keçin və əlaqə telefonlarını əldə edin;
- Pasportunuzu heç kəsə etibar etməyin! (Lazım gəldikdə sənədlərinizin ancaq surətini tələb olunan yerə təqdim edin);
- Xaricdə olarkən, mütəmadi olaraq yaxınlarınız və ailənizlə əlaqə saxlayın.

### -İnsan alverinə məruz qaldıqda və ya qalma təhlükəsində olduqda, sizin hüquqlarınız :

- Yardım almaq;
  Hüquqi, sosial, psixoloji, maddi, təhlükəsizlik və s;
- Repatriasiya, qayıdış, kompensasiya və s.

## -Siz xarici ölkədə ailə qurmağa razılıq vermisiniz?

- Bu istəyinizi reallaşdırmaq məqsədi ilə nikah firmalarına müraciət etməli olsanız, ilk öncə həmin firmanın lisenziyasının olduğundan əmin olun;

- Ailə qurmaq istədiyiniz xarici vətəndaş barədə onun vətəndaşı olduğu ölkənin səfirliyinə müraciət edərək rəsmi məlumat alın;

- Ailə qurmağınız üçün təklif edilən şəxsin sənədləri ilə yaxından tanış olun;





Əmək müqavilənizdən kənar işlərə məcbur edilmək;

İstər ölkə daxilində, istərsə də ölkə xaricində etibarlı olmayan əmək, təhsil, nikah və digər müqavilələri imzalamaq;



İstər ölkə daxilində, istərsə də ölkə xaricində hərəkət azadlığınızın, telefon, internet və digər vasitələrdən istifadənizin başqa şəxslər tərəfindən qanunsuz məhdudlaşdırılmasına yol vermək;




Vizada göstərilən müddətdən artıq xarici dövlətdə qalmaq və verilən vizaya uyğun olmayan fəaliyyətlə məşğul olmaq;

Yaşama məqsədiniz dəyişdikdə, bu barədə rəsmi qaydada miqrasiya xidməti orqanına məlumat verməmək (məsələn, tələbə vizasından iş vizasına keçid).

## -Sizə xaricdə ödənişli iş təklif olunur?

- Əmin olun ki, iş təklif edən firmanın xaricdə işlə təmin etmək hüququ verən lisenziyası və ya yerli məşğulluq mərkəzində qeydiyyatı var. Azərbaycan Respublikasi Ədliyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu firmaların siyahısını tərtib edib;
- Müraciət etdiyiniz firmanın sənədləri, iş təcrübəsi, firmanın adından çıxış edən nümayəndənin ad və soyadı, təmsil etdiyi firmanın ona verdiyi vəsiqə, etibarnamə və müqaviləni diqqətlə yoxlayın;
- Xarici ölkədə əmək fəaliyyəti ilə məşğul olmaq istədikdə əmək vizası alın;
- Bilin ki, əmək müqaviləsi mütləq ana dilində olmalı və ya tərcümə edilməli və sizə aydın olan üslubda yazılmalıdır. Müqavilədə, xaricdə görəcəyiniz iş, şərtlər, əmək haqqı, müqavilənin qüvvədə olma müddəti, iş və tətil günləri və hər iki tərəfin öhdəlikləri dəqiq və aydın şəkildə göstərilməlidir.





## -Sizə xarici ölkədə təhsil almaq təklif olunur?

- Sizə təhsil müəssisəsi tərəfindən mütləq rəsmi qəbul sənədləri təqdim edilməlidir.
- Sizə verilən viza növü "tələbə vizası" olmalıdır;
- Təhsil təklif edən şirkətin və ya fiziki şəxsin bu fəaliyyət üçün icazəsinin olduğundan əmin olun.

